# Qayıdışınız mübarək, Ağalı sakinləri!

***30** il xalqımızın həsrətlə gözlədiyi gün yetişdi. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin müdrikliyi və yenilməz ordumuzun rəşadəti sayəsində işğalçı Ermənistan silahlı qüvvələri darmadağın edilərək Azərbaycan ərazilərindən qovuldu. Düşmən qəhrəman ordumuz qarşısında cəmi 44 gün tab gətirə bildi və təslim oldu. Şanlı qələbəmizdən bir həftə sonra Prezidentin və Birinci vitse-prezidentin işğaldan azad edilmiş ərazilərə səfərləri başlandı. Bununla da həmin torpaqlarda yenidənqurmaya, tikinti-quruculuq və abadlıq işlərinə start verildi. Bir sıra xarici ölkələrin iri şirkətlərinin də tikinti-bərpa işlərinə qoşulması ölkəmizin haqq işinə beynəlxalq aləmdə göstərilən dəstəyin nümunəsidir. İşğaldan azad edilmiş ərazilərdə qısa vaxt ərzində görülən işlər beynəlxalq aləmdə də böyük əks-səda doğurub. Artıq dünəndən Zəngilan rayonunun Ağalı kəndinin sakinlərinin köçürülməsinə başlanılıb.*






Otuz ilə yaxın müddətdən sonra doğma dədə-baba kəndlərinə qayıdanların sevinci yerə-göyə sığmır. Sevinc göz yaşları axıda-axıda yır-yığış edənlər bu fərəhli və qürurlu günü onlara bəxş edən Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirirlər.

***Ağalı kəndinin sakini Mina Mirzəyevanın, sanki, uçmağa qanadı yoxdur. Mina xanım deyir ki, bu köç o biri köçlərdən deyil.***

– Düz otuz il idi ki, gözlərimiz qapıda, qulağımız səsdə idi. Gözləyirdik ki, kimsə qapımızı döyüb deyəcək ki, hazırlaşın, kəndinizə qayıdırsınız. Nəhayət, o günü görmək bizə də nəsib oldu. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 20 oktyabr 2020-ci il tarixində xalqa etdiyi müraciət hər birimizin, xüsusilə zəngilanlıların heç vaxt yaddaşından silinməyəcək. Dövlət başçımız dedi ki, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildi. 27 ilin hər gününü bu xəbəri eşitmək arzusu ilə yaşamışdıq. Allaha şükürlər olsun ki, gözlədiyimiz gün yetişdi. Biz ailədə 9 nəfərik. İki oğlum, gəlinlərim və nəvələrim sevinc içərisindədir. Niyə də sevinməyək? Biz doğma kəndimizə qayıdırıq.

Ağalı kəndində aparılan yenidənqurma, tikinti-bərpa işlərini televizorda görmüşük. Ermənilərin işğal müddətində kəndimizə törətdikəri vəhşilikdən əsər-əlamət qalmayıb. Kəndimiz bu gün sanki inkişaf etmiş şəhərə bənzəyir. Oğlanlarım, gəlinlərim kəndimizdə açılmış iş yerlərində çalışacaqlar, nəvələrim ata-baba yurdumuzda təhsil alacaqlar. Bundan böyük xoşbəxtlik yoxdur. Bütün bunlara görə möhtərəm Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sonsuz minnətdarlığımı bildirirəm. Allah balalarınızı xoşbəxt eləsin!

***Böyük fərəh və sevinclə doğma kəndlərinə köçməyə hazırlaşan digər sakin Səbinə Məmmədova da bu günü səbrsizliklə gözlədiyini və həmin günün yetişəcəyinə əmin olduğunu bildirdi:***

– Dedi ki, müharibə başlayan ilk gündən ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələrdən sonra əmin oldum ki, biz düşməni məhv edəcəyik. Elə də oldu. 30 il bizim ərazilərimizdə misli görünməyən vəhşiliklər törədən erməni quldurları silahlı qüvvələrimiz qarşısında cəmi 44 gün duruş gətirə bildilər. 2021-ci il aprelin 26-da Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Zəngilan rayonunun Ağalı kəndinə gəlişlərini televiziya vasitəsilə seyr etdim. Doğma kəndimizi görəndə ailəmizdə qeyri-ixtiyari sevinc dolu göz yaşaları axıdıldı. Sevindiyimizdən bir-birimizə sarıldıq. Tam arxayın olduq ki, doğma kəndimiz düşməndən azad edilib və yaxın vaxtlarda isti ocağımıza qayıdacağıq. 2021-ci il dekabrın 24-də Prezident İlham Əliyev Zəngilan rayonunda Azərbaycan bayrağını qaldıranda bir daha əmin olduq ki, "Qarabağ Azərbaycandır!"

Səbinə xanım 5 nəfər ailə üzvü ilə bərabər doğma kəndlərindədir. Deyir ki, dövlət bizim köçməyimiz üçün hər cür şərait yaradıb. Hətta, köç ərəfəsində hamımızı həkim müayinəsindən də keçirdilər.

Ailə üzvlərinin işlə təmin olunmasından söhbət açan S.Məmmədova dedi ki, televizorda dəfələrlə baxmışam. Kənd sakinlərinin rahatlığı üçün hər cür şərait yaradılıb. Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb. Yəqin ki, bu meydan hər birimizin ən sevimli istirahət mərkəzi olacaq. Qəsəbədə, "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub. Hər şeydən əvvəl, hamımız üçün xəcalət olan "məcburi köçkün" adından xilas olduq. Deyir ki, hər dəfə bu adı eşidəndə utanırdı. Möhtərəm Prezidentimiz yurdundan-yuvasından didərgin salınanları bu xəcalətdən də xilas etdi.

Xatırladaq ki, Ağalı kəndində reallaşdırılan layihənin icrası – yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri üzrə həyata keçirilib. Ağalıda inşa olunan 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən ödəniləcək. Kənddə DOST Agentliyinin "Şərqi Zəngəzur və Qarabağ" proqramı çərçivəsində "Smart DOST" xidmət məntəqəsi də fəaliyyətə başlayacaq. Həmçinin "Dost Aqropark" fəaliyyət göstərəcək.

Kənddə müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, Günəş panellərinin quraşdırılması kimi amillər yüksək səviyyədə reallaşdırılıb. Bütün bunlarla bərabər, kənddə "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və orta məktəb inşa edilib. Gələcəkdə kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli binaların inşası da nəzərdə tutulur

...Sakinlər böyük sevinc hissi ilə doğma ata-baba yurdlarına qayıdırlar. Qayıdışınız mübarək, əziz ağalılılar!

***Söhbəti yazdı:***
***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 21 iyul.- S.6.